**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 107

**Bakı şəhəri** "22" noyabr 2011-ci il

**"Kadrların avtomatlaşdırılmış uçot sisteminin tətbiq edilməsi haqqında"**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan bütün idarə və müəssisələrində tibbi kadrların avtomatlaşdırılmış uçot sisteminin tətbiq edilməsi məqsədi ilə

## ƏMR EDİRƏM:

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin tabeliyində olan bütün idarə və müəssisələrində "Elektron əmr" tibbi kadrların avtomatlaşdırılmış uçot sistemi 01.01.2012-ci il tarixdən tətbiq edilsin.
2. Səhiyyə Nazirliyinin idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın ki, "Elektron əmr" sisteminin tətbiqi ilə bağlı müvafiq tədbirlər görülsün.
3. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, "Elektron əmr" sisteminin tətbiqi ilə əlaqədar yerlərdə texniki dəstək və metodiki yardım təmin edilsin.
4. Aparat rəhbəri Z.Mustafayevaya tapşırılsın ki, "Elektron əmr" sisteminə daxil olunan məlumatların təhlili və monitorinqin təmin edilməsi üçün işçi qrupu yaradılsın.
5. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**